1-1_tovuz.qxd 28.02.2017 16:02 Page 1


# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 07-08 (7488-7489) * 23 fevral 2017-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik




***M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin***

## Sərəncamı

***Azərbaycan Respublikası Konstitusiyasının 103 -cü maddəsinin I hissəsini rəhbər tutaraq qərara alıram:***

***Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 fevral 2017-ci il.***



# İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.

Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

İclasda Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı təqdim edərək deyib:

-Bu gün mənim Sərəncamımla Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib. Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır.

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir.

Digər layihələr ölkəmizin hərtərəfli inkişafına xidmət göstərmişdir. Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilmişdir. Bir çox hallarda bu məsələlər ictimaiyyət üçün açıqlanmır. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən az müdafiə olunan vətəndaşlara imkan daxilində öz dəstəyini göstərsin.

Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur.

Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.

Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ərzində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır.

Təsadüfi deyil ki, bu il keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevaya həvalə edilib. Bu Oyunların Təşkilat Komitəsinin sədri də odur və hazırlıq işləri yüksək səviyyədə aparılır. Əminəm ki, biz İslam Həmrəyliyi Oyunlarını da yüksək səviyyədə keçirəcəyik.

Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif edilmişdir.

Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən onu təbrik edirəm və ona yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxış edərək dedi:

-Hörmətli cənab Prezident.

Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam.

Mənim fəaliyyətim haqqında dediyiniz sözlərə, verdiyiniz qiymətlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mənim üçün belə bir qiymətə layiq olmaq böyük şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, Sizin dəstəyiniz durur.

Ötən illər ərzində Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi. Bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz də öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.

Rəhbərlik etdiyim Heydər Əliyev Fondu artıq 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, biz 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insanseverlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Hörmətli cənab Prezident.

Hörmətli Təhlükəsizlik Şurasının üzvləri.

Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

Göstərdiyiniz etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

1-1_tovuz.qxd 28.02.2017 16:02 Page 2



*Əziz Əliyev-120*

# Görkəmli alim, tanınmış dövlət xadimi

***Azərbaycan xalqının yetirdiyi görkəmli simalar, işıqlı ziyalılar sırasında Əziz Əliyev ən öndə gedənlədəndir. O, istər bir dövlət xadimi kimi, istərsə də dünya şöhrətli alim kimi öz xalqına sonsuz xidmətlər göstərmişdir. Məhz bütün bu xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Əziz Əliyevin anadan olmasının 120 illik yubileyi ölkəmizdə geniş şəkildə qeyd olunur.***



Dünya səhiyyəsinə böyük töhfələr vermiş bu görkəmli alim, gözəl insan çox ibrətamiz və mənalı ömür yolu keçmişdir.

Əziz Əliyev 1897-ci il yanvar ayının 1-də qədim Azərbaycan torpağında - İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuşdur.

O, 8 yaşında rus-tatar (Azərbaycan) məktəbinə daxil olur və orada ibtidai təhsil alır. 1908-ci ildə İrəvandakı gimnaziyaya daxil olur, 1917-ci ildə buranı bütün fənlər üzrə əla qiymətlərlə bitirir. Maddi cəhətdən təhsilini davam etdirmək üçün məktubla Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə müraciət edir və tezliklə həmin vaxt üçün kifayət qədər dəyərli vəsait hesab olunan 300 rubl kömək alır.

Elə həmin il o, Sankt-Peterburqda Rusiyanın ən nüfuzlu ali tibb məktəblərindən sayılan Hərbi Tibb Akademiyasına daxil olur.

Ə.Əliyev elə birinci kursun əvvəllərindən səhiyyə sahəsində çalışır, səpkili yatalaqla mübarizə əleyhinə təşkil edilmiş dezinfeksiya-profilaktika briqadasına işə düzəlir. Aldığı maaşla həm özünün minimal güzəranını təmin edir, həm də valideynlərinə yardım göstərir.

Əziz Əliyev 1918-ci il iyun ayında, yay tətilində İrəvana gəlir. Lakin burada erməni daşnaklarının yerli əhaliyə qarşı amansız qəddarlıqları ilə rastlaşır. Məcburən ailələrini çətinliklə Naxçıvanın Şərur rayonuna köçürə bilir. Bir müddət Şərurda qaldıqdan sonra anasını və qardaşını Şahtaxtı kəndinə aparır.

Yaranmış vəziyyət Əziz Əliyevi Sankt-Peterburqa qayıtmaq, təhsilini davam etdirmək imkanından məhrum edir.

Ermənilərin hücumundan salamat çıxa bilən və didərgin düşən Şahtaxtı əhalisi, o cümlədən Əziz Əliyevin ailəsi Araz çayını keçir və bir müddət Cənubi Azərbaycanın Ərəblər kəndində yaşamalı olurlar. Ə.Əliyev tibbi xidmətini burada da davam etdirir və həkim köməkçisi kimi çalışaraq əhaliyə lazımi tibbi yardımlar göstərir.

Anası 1920-ci ildə Ərəblər kəndində vəfat edir. 1921-ci ilin iyun ayında onlar Şahtaxtı kəndinə qayıda bilir və Əziz Əliyev 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışır.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçür. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında müxtəlif vəzifələrdə çalışır. 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini BDU-nun tibb fakültəsində davam etdirir. O, 1927-ci ildə Bakı Dövlət Universitetinin tibb fakültəsini bitirir və universitetin daxili xəstəliklər kafedrasında saxlanılır.

Əziz Əliyev həmin kafedrada əvvəl ordinator, sonra isə aspirant, assistent və dosent kimi fəaliyyət göstərir. O 1929-1932-ci illərdə Azərbaycan Klinik İnstitutunun rektoru vəzifəsinə təyin olunur.

Əziz Əliyev İkinci Dünya Müharibəsindən həm əvvəlki, həm də sonrakı illərdə Xalq Səhiyyə Komissarlığı müalicə şöbəsinin müdiri, Bakı səhiyyə şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarının müavini, Xalq Səhiyyə Komissarı vəzifəsində çalışarkən respublikanın bütün rayonlarını qarış-qarış gəzib, bu sahədə problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görüb.

1930-cu il iyun ayının 19-da Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. Əziz Əliyev o illərdə ADTİ-nin yaradılmasında böyük rol oynayır. 1932-ci ildə o, həmin institutun rektoru olur.

Əziz Əliyev 1934-cü il mart ayının 30-da paytaxtda səhiyyə işlərini yaxşılaşdırmaq məqsədi ilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri təyin edilir. Ancaq az keçməmiş, 1935-ci il yanvarın 14-də Azərbaycanda yüksək ixtisaslı milli tibb kadrlarının hazırlığını gücləndirmək məqsədilə o, yenidən ADTİ-nin rektoru vəzifəsinə qaytarılır. ADTİ-yə rektor təyin edildikdən az sonra onun rəhbərliyi altında həlli vacib sayılan bütün məsələlər üçün geniş tədbirlər planı hazırlanır. O, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirir və ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələr yazılmasına nail olur.

1932-1935-ci illər ərzində Əziz Əliyevin rəhbərliyi altında əməkdaşlar tərəfindən Azərbaycan dilində latın qrafikası ilə 45 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan tələbələrin ixtiyarına verilir. Bu kitablar indi də öz dəyərini saxlayır və onların hər birinin işıq üzü görməsində Əziz Əliyevin müstəsna rolu vardır.

1930-1945-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun əməkdaşları tərəfindən 80 adda dərslik və dərs vəsaiti nəşr olunur. Onun 55-i Əziz Əliyevin instituta rəhbərlik etdiyi beş il ərzindəki yaradıcı və məhsuldar dövrə təsadüf edir.

Onun rəhbərliyi altında institutda "Tibb nəşriyyatı" yaradılır. Professorun təşəbbüsü ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşri əsaslı surətdə təkmilləşdirilir, "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapı qaydaya salınır. Hazırda bu qəzet "Təbib" adı ilə Azərbaycan Tibb Universitetində çap olunmaqdadır.

O, institutu bitirəndən iki il sonra 1929-cu ildə namizədlik, beş il sonra isə doktorluq dissertasiyasını müdafiə edir. Əziz Əliyev 1941-ci il mayın 13-də (Azərbaycan SSR xalq səhiyyə komissarı işləyərkən) SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının rəyasət heyəti nəzdində təşkil edilmiş elmi şuranın üzvü, 1956-cı ildə isə professor vəzifəsinə seçilir və həmin ildə də professor elmi adı təsdiq olunur.

Əziz Əliyev həm də görkəmli dövlət xadimi olmuşdur.

O, İkinci dünya müharibəsi illərində alay polkovniki rütbəsində sovet əsgərləri ilə birlikdə siyasi rəhbər kimi Cənubi Azərbaycana yollanır. Təbrizdə, Urmiyədə, Ərdəbildə,Mərənddə, Zəncanda olur.

Əziz Əliyevin fəaliyyət dairəsi olduqca rəngarəng və çoxcəhətli olub. O, müəyyən müddətdə Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışır. Akademik M.Topçubaşov haqlı olaraq yazırdı ki, "Əziz, Aşıq Ələsgər demişkən, "hər elmdən hali" idi. Onun hansı institutu bitirdiyini müəyyənləşdirmək çətin idi. Əziz Əliyev bütün sahələrdə özünü yüksək səviyyəli mütəxəssis kimi göstərə bilirdi".

Əziz Əliyev 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilir. O, 1949-1950-ci illərdə Moskvada ÜİK (b) P MK-nın inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləyir.

Dağıstanda işləyərkən Dağıstan ictimaiyyəti Əziz Əliyevə üzərində onun əksi həkk olunan xüsusi medalyon bağışlayır . Həmin medalyon hal-hazırda Azərbaycanın Tarix Muzeyində saxlanılmaqdadır. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR əməkdar həkimi" fəxri adı verilir.

Ə.Əliyev I-II çağırış SSRİ Ali Sovetinin deputatı seçilib. O, həmçinin Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırış deputatı olub.

Əziz Əliyev iki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, I dərəcəli Vətən müharibəsi ordeni və bir çox medallarla təltif edilib.

Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı,Naxçıvan və Mahaçqalanın mərkəzi küçələrindən biri Əziz Əliyevin adını daşıyır.

Əziz Əliyevin əbədi heykəli xalqın qəlbində çoxdan ucaldılıb.

O, həm də gözəl ailə başçısı idi. Sevimli həyat yoldaşı Leyli xanımla birgə böyütdükləri mehriban övladları valideyn tərbiyəsinə layiq və sadiq övladlar olmuşlar.

Qızı Zərifə xanım Əliyeva atasının şərəfli yolunu davam etdirmişdir. O görkəmli oftalmoloq olmuş, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Qızı Gülarə xanım Əliyeva görkəmli musiqiçi, mahir piano ifaçısı, əməkdar incəsənət xadimi olmuşdur.

Oğlu Tamerlan Əliyev tibb elmləri doktoru, professor olmuşdur.

Oğlu Cəmil Əliyev tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür.

Biz tibb işçiləri səhiyyənin inkişafındakı xidmətlərinə görə Əziz Əliyev kimi Vətən fədailərinə borcluyuq. Onun əziz xatirəsi daima qəlbimizdə yaşayacaq, keçdiyi həyat yolu bizim üçün bir örnək olacaqdır.



***Paşa Muradov,***
***Mərkəzi Rayon***
***Xəstəxanasının baş həkimi***

1-1_tovuz.qxd 28.02.2017 16:02 Page 3



# Bütün sahələrin inkişafında dövlətimizin və Prezidentimizin qayğısını hiss edirik

*Ötən nömrəmizdə xəbər verdiyimiz kimi, fevral ayının 8-də Aşıq Əkbər Cəfərov adına Tovuz rayon Mədəniyyət Mərkəzində geniş tərkibdə şura iclası keçirilmişdir.*

*Şura iclasında "Tovuz rayonunda 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr barədə" Tovuz rayon İcra Hakimiyyətinin başçısı Tofiq Məhəmmədəli oğlu Zeynalov hesabat məruzəsi ilə çıxış etmişdir. Məruzə ətrafında çıxışlar olmuşdur. Həmin çıxışları oxucularımızın diqqətinə çatdırırıq.*

***Rayon Bələdiyyələri Şurasının sədri Binnət Hüseynovun çıxışı***



Hörmətli cənab Başçı!

Hörmətli yığıncaq iştirakçıları!

Hesabat məruzəsində 2016-cı ildə rayonumuzda görülən işlər ətraflı təhlil olundu və 2017-ci ildə qarşımızda duran vəzifələrin əsas parametriləri geniş şərh olundu.Mən rayon Bələdiyyələri Şurasının sədri kimi öz üzərimizə düşən vəzifələrdən və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətimizdən danışmaq istəyirəm.

Təməli ulu öndərimiz H.Əliyev tərəfindən qoyulmuş ölkə bələdiyyələri illər ötdükcə möhkəmləndirilir və fəaliyyət dairəsi genişləndirilir. İndi bələdiyyələr fəaliyyət göstərdiyi ərazinin iqtisadi və sosial inkişafına daha dərindən nüfuz edirlər. Öz ərazisində səlahiyyətləri daxilində fəaliyyət göstərməklə seçicilərin etimadını doğrultmaq bələdiyyələrin qarşısında duran ən mühüm vəzifəsindən biridir.

2016-cı ildə bələdiyyələr də rayonumuzun sosial iqtisadi inkişafına öz töhfələrini verməyə çalışmışlar.

Təbiidir ki, rayonumuzda dövlət başçısının bütün tapşırıq və göstərişlərinin müvəffəqiyyətlə icra olunması hörmətli başçımız cənab T.Zeynalovun yorulmaz fəaliyyətinin, təşkilatçılığının, tələbkarlığının və yüksək işgüzarlığının nəticəsidir. Bələdiyyələr də öz işlərini müvafiq qanunvericilik aktları əsasında qurmuşdur.

Məlumat üçün bildirmək istəyirəm ki, rayonumuzda 2 şəhər və 39 kənd bələdiyyəsi olmaqla 41 bələdiyyə fəaliyyət göstərir.

Ötən il bələdiyyələr tərəfindən "bir bələdiyyəyə azı-bir layihə" çərçivəsində 78 min manat dəyərində 67 xırda layihə icra olunmuşdur. Hesabat dövründə bələdiyyələr 38 vətəndaşa fərdi yaşayış evinin tikintisi üçün həyətyanı torpaq sahəsi vermiş, 6 nəfərə isə sahibkarlıq fəaliyyəti göstərmələri üçün torpaq sahəsi satılmışdır.

Bələdiyyələrin qanunvericilik bazasının təkmilləşdirilməsi onların fəaliyyətinə də öz əksini getdikcə daha mükəmməl şəkildə tapır.

Belə bir fakt məmnunluq yaradır ki, ötən il bələdiyyələr tərəfindən qanunsuz torpaq sahəsi verilməsi halı qeydə alınmamış, heç bir bələdiyyənin qərarı məhkəmələr tərəfindən ləğv edilməmişdir.

Ölkə başçısı cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq rayonda torpaqlardan qanunsuz və səmərəsiz istifadə olunmasına qarşı ciddi mübarizə aparılır. Lakin rayonda keçmiş illərdən vətəndaşlar tərəfindən zəbt olunmuş 28 hektar torpaq sahəsinin olması ciddi narahatlıq doğurur. Hazırda həmin torpaq sahələrinin qanunvericiliyin tələblərinə uyğun şəkildə rəsmiləşdirilməsi, yaxud geri alınması üzərində iş aparılır.

Bu barədə vətəndaşlara lazımi hüquqi izahlar verilir. Bir məsələni qeyd etmək istəyirəm ki, bu günədək 41 bələdiyyədən 39-nun elektron xəritəsinin olmaması, bələdiyyənin hüdudları daxilində torpaqların mülkiyyət növlərinin müəyyənləşdirilməməsi torpaq qanunçuluğunun pozulmasına qarşı mübarizənin effektliliyinə xələl gətirir, eyni zamanda torpaq mübahisələrinin vaxtında və düzgün həllinə mane olur.

Cənab başçının mərizəsində torpaqlardan səmərəli istifadə olunması məsələsinə də toxunuldu. Rayon üzrə bələdiyyələrin mülkiyyətində 45913 hektar torpaq sahəsi vardır. Bundan 43114 hektarı ümumi istifadə torpaqları, o cümlədən 33920 hektarı örüşlərdir. Əkin sahəsi cəmi 962 hektardır. Yerdə qalanları isə yarğanlar və sair torpaqlardır.

Qeyri-neft sektorunun inkişafı ilə bağlı yeni çağırışlara uyğun olaraq torpaqlardan daha səmərəli istifadə olunması üçün əhali arasında daim iş aparılır. Kənd sakinlərinin dövlətimizin siyasətinə anlayışla yanaşmasının nəticəsidir ki, hazırda rayonda demək olar ki, əkilməmiş torpaq sahəsi qalmamışdır. Əkinçiliyin ənənəvi sahələrinin təşviqi istiqamətində daim iş aparırıq. Cari ildə tütün və şəkər çuğundurunun əkin sahələri xeyli genişləndirilmiş, barama istehsalını artırmaq üçün lazımi hazırlıq işləri aparılmışdır. Ötən ilin təcrübəsi göstərdi ki, bələdiyyələr özləri müstəqil qaydada təsərrüfatçılıqla məşğul ola bilərlər. Qovlar bələdiyyəsinin təcrübəsindən deyə bilərəm ki, biz 2017-ci ildə 4 qutu barama saxlamağı, 3 hektar tütün əkməyi, 50 hektarda isə şəkər çuğunduru becərməyi nəzərdə tuturuq. Sözsüz ki, bu bizim maliyyə vəziyyətimizin yaxşılaşdırılmasına da əsaslı təsir göstərəcəkdir. Mən bütün bələdiyyələri də bu istiqamətdə fəaliyyət göstərməyə çağırıram.

Hesabat dövründə rayon İcra Hakimiyyətinin fəaliyyətini qənaətbaxş hesab edirəm.

Diqqətinizə görə sağ olun!

***E. Orucov adına Bayramlı kənd orta məktəbinin direktoru Zülfüqar Mustafayevin çıxışı***



Hörmətli Tofiq müəllim!

Hörmətli yığıncaq iştirakçıları!

Son illər ölkəmiz bütün sahələrdə ciddi uğurlara imza atmışdır.

Hörmətli Prezidentimiz cənab İlham Əliyevin fədakar əməyi və uzaqgörən siyasəti nəticəsində Azərbaycan dövlətinin çiçəklənməsi və qüdrətlənməsi təkcə respublikamızın mərkəz şəhərlərində deyil, hətta ən ucqar rayonlarda belə hiss edilməyə başladı. Belə bir , inkişaf Tovuz rayonundan da yan keçmədi.

Cənab başçı fəaliyyəti dövründə bütün sahələrlə yanaşı hərbi sahəyə, idmana, musiqiyə, incəsənətə və eləcə də gənclərin xarici dil öyrənməsinə xüsusi fikir vermiş, həmin sahələrin inkişafı üçün bütün imkanlardan maksimum dərəcədə istifadə etmişdir. Hamımıza yaxşı məlumdur ki, ali hərbi məktəblərə qəbulun nəticələrinə görə Tovuz rayonundan olan məzunlar digər rayonlara örnəkdir. Mən fəxrlə deyə bilərəm ki, həmin gənclərin 30-40 faizini Azaflı vı Bayramlı kəndlərinin məzunları təşkil edir.

Mən bu günki çıxışımda bir xarici dil müəllimi kimi xarici dil bilməyin vacibliyini sizlərin diqqətinə çatdırmaq istəyirəm. İlk öncə fəxrlə demək istəyirəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin mötəbər konfranslarda, dövlət başçıları ilə görüşlərdə ingilis, fransız, rus və s. xarici dillərdə birbaşa səlist, rəvan danışması, dialoqa girməsi onun yüksək intellektindən xəbər verir.

Bizim istəklərimizdən asılı olmayaraq dünya qloballaşır. Əgər dünya ilə danışmaq, dünyanı anlamaq və dünyaya anlatmaq istəyiriksə xarici dil bilməliyik.

2014-cü ildə Tovuz rayonu ilə Fransanın Konyak şəhəri arasında müxtəlif sahələr üzrə imzalanmış momerandum rayonumuzun beynəlxalq əlaqələrini gücləndirmək sahəsində atılan mühüm addımlardan biridir. Fransız dili müəllimi kimi dilini tədris etdiyimiz ölkənin nümayəndələri ilə rayonumuzda işbirliyi yaradılması, görüşlər keçirilməsi məni çox sevindirir. Onu da nəzərinizə çatdırım ki, 2016-cı ilin noyabr ayında Konyak şəhərinin meri cənab Mişel Kurnişas nümayəndə heyətilə birlikdə yenidən Tovuz rayonuna gələrək bir sıra mühüm görüşlər keçirmişdir. Bunlardan biri də Azaflı kənd tam orta məktəbində şagirdlərlə keçirilən görüşdür. Cənab Mişel bu görüşdən xoş təəssüratla ayrılmışdır. Şagirdlərin onunla birbaşa dialoqa girməsi, şeirlər, mahnılar söyləməsi, onun ölkəsinin tarixi, mədəniyyəti və incəsənəti barədə ətraflı məlumat verməsi , Fransaya dost bir ölkə kimi münasibət bildirməsi, gələcəkdə öz təhsillərini Fransada davam etdirərək frankofon ölkələrdə işləmək niyyətlərini bildirmələri onu heyrətə gətirdi. Gələcəkdə Tovuz rayonunun fransız dili tədris olunan məktəblərinin şagirdləri ilə Konyak şəhərinin məktəbliləri arasında hərtərəfli münasibətlərin yaradılması üçün gözəl zəmin yaradıldı.

Bir faktı nəzərinizə çatdırım ki, bu iki kənddə gənclərimiz hərbi sahəyə nə qədər maraq göstərirlərsə, xarici dil öyrənməyə də bir o qədər meyl edirlər. Təkcə onu demək kifayətdir ki, son dövrlərdə bu məktəblərin məzunlarından 12 nəfər Dövlət Dillər Universitetinin pedoqoji və tərcüməçilik fakültələrini bitirərək respublikamızın müxtəlif bölgələrində işləyirlər. İki nəfər məzunumuz Fransanın Azərbaycandakı şirkətlərində fəaliyyət göstərirlər. 8 nəfər gənclərin təlim-tərbiyəsi ilə məşğul olur. Eyni zamanda Fransanın Azərbaycandakı səfirliyinin Elm, Təhsil, Mədəniyyət və İncəsənət şöbəsinin tələbələr arasında keçirdiyi müsabiqədə qalib gələrək Abbasova Lalə Akif qızı və Hüseynzadə Əfsanə Adil qızı Paris şəhərinə bir aylıq səyahət etmək hüququ qazanmışlar.

Mən özüm də qərb regionunda keçirilən müsabiqələrin birində qalib olaraq Fransanın Bezsanson şəhərinə pedaqoji fəaliyyətimlə əlaqədar təcrübə toplamağa getmişəm.

Bu günkü tədbirdə müxtəlif peşə sahibləri iştirak edirlər. Mən sizi əmin edirəm ki, hansı peşənin sahibi olmasından asılı olmayaraq hər hanı bir xarici dili mükəmməl bilən hər bir vətəndaş dövlətinə, millətinə daha çox xeyir vermiş olar, öz ailə biznesini daha güclü qurmuş olar. Beynəlxalq təşkilatlarda Azərbaycan həqiqətlərini - Qarabağ problemini, Xocalı soyqırımını səsləndirmək, xarici ölkələrdə diasporaların fəaliyyətini daha da gücləndirmək, siyasi dairələrə güclü təsir etmək, dövlət maraqlarını daha sağlam şəkildə diktə etmək hegemon dünya dillərini dərindən və düzgün mənimsəmiş, vətənpərvər vətəndaşlar yetişdirməkdən asılıdır və fəaliyyətimizi bu istiqamətdə qurmağa çalışırıq.Mübaliğəsiz olaraq hesabat dövründə görülən işləri qənaətbəxş hesab edirəm.

Diqqətinizə görə çox sağ olun!

***(Davamı 4-cü səhifədə)***

1-1_tovuz.qxd 28.02.2017 16:02 Page 4



# Bütün sahələrin inkişafında dövlətimizin və Prezidentimizin qayğısını hiss edirik

*(Əvvəli 3-cü səhifədə)*

**Hunanlar kənd sakini, ailə təsərrüfatının başçısı Fərmayıl Cəfərovun çıxışı**



Cənab Başçı!

Hörmətli yığıncaq iştirakçıları!

İcazənizlə sizləri Hunanlar kənd sakinləri adından səmimiyyətlə salamlayır və həmkəndlilərimin ən xoş arzularını sizlərə çatdırıram.

Cənab başçımızın hesabat məruzəsində qeyd etdiyi kimi, ölkəmizdə elə bir sahə yoxdur ki, orada dinamik inkişaf olmasın.

Minnətdarlıq hissi ilə qeyd etmək istəyirəm ki, keçən ilin fevral ayında cənab Prezidentimizin iştirakı ilə Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun qısa müddətdə əsaslı təmirdən sonra istifadəyə verilməsi kənd əhalisinin böyük sevincinə səbəb olmuşdur. Sakinlərimiz- uşaqdan böyüyə hamısı uzun illər arzusunda olduğumuz və bu gün həqiqətə çevrilən Hunanlar yolunun Tovuz şəhərinə qədər asfalt örtüyü ilə örtülməsini alqışlayır, möhtərəm cənab Prezidentimiz İlham Əliyevə, cənab başçımız Tofiq Zeynalova və bu işdə zəhməti olan hər kəsə öz minnətdarlıqlarını, təşəkkürlərini bildirilər.

Bu gün 2 min nəfərdən çox əhalisi olan Hunanlar kəndində kifayət qədər sosial infrastruktur yaradılmışdır. Əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Hamımızın həyətyanı torpaq sahəsi və pay torpağımız vardır. Ötən il sakinlərimiz 295 hektar sahədə faraş tərəvəz, göyərti, sarı kök, kartof və digər kənd təsərrüfatı məhsulları əkib becərmişlər.

Orta hesabla hər bir kəndli təsərrüfatında azı 3 iribuynuzlu mal-qara və 15-ə yaxın qoyun-quzu bəslənir. Güzəranımız yaxşıdır. Heç şübhə yoxdur ki, bu gün öz torpağına bağlanan, ondan qədərincə istifadə etməyi bacaran insanlar normal yaşayırlar.

Kəndimiz rayonumuzun xarici bazaralara məhsul çıxaran öncüllərdəndir. 2016-cı təsərrüfat ilində Hunanlar kəndində əkinçiliyin ən gəlirli sahələrindən biri olan tərəvəz bitkilərindən 250 hektar sahədə yerkökü bitkisi əkilmişdir. Hər hektar sahədən 30 tondan çox məhsul götürmüşük. 3 min ton keyfiyyətli, ekoloji cəhətdən təmiz olan brend məhsulumuz olan yerkökünü Rusiya bazarlarına ixrac etmişik.

Ümumilikdə isə 8600 ton yerkökü və digər tərəvəz məhsulları istehsal etmişik. Təkcə bundan hər bir ailəyə düşən gəlir, məruzədə qeyd olunduğu kimi 6490 manat təşkil etmişdir. Bu inkişafdır, bizim üçün cənab Prezidentimizin yaratdığı əlverişli şəraitin real nəticəsidir.

Bir məsələni bu tribunadan xüsusi vurğulamaq istəyirəm. Bu da möhtərəm Prezidentimiz İlham cənab Əliyevin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdışla bağlı verdiyi Fərmanla bağlıdır. Bu nəinki bütün məcburi köçünlərin öz yurd-yuvalarına qayıtmaq arzularını daha da alovlandırmış, biz qaçqınlara da yeni ümidlər vermişdir. Bu Fərmana görə həmkəndlilərimiz adından Prezidentimizə çox böyük minnətdarlıq bildirirəm.

Məlumat üçün bildirirəm ki, cənab başçımız Tofiq Zeynalovun kənd təsərrüfatının ayrı-ayrı sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanlarla çoxsaylı görüşləri, bizlərə qayğısı və lazımi tövsiyələri 2017-ci təsərrüfat ilində tərəvəzçiliklə məşğul olan insanlarda daha çox ruh yüksəliyi yaratmış və əsasən ailə təsərrüfatları kimi çalışan kəndçilərimiz yerkökü sahələrini 300 hektara çatdırmışlar.

Mən yanvar ayının 30-da keçirilmiş Regionların inkişafı Proqramının üçüncü ilinin yekunlarına həsr olunan konfransı izləyərkən ölkəmizdə qeyri-neft sektorunun inkişafına verilən önəmi, cənab Prezidentimizin bu sahəyə diqqətini və tələblərini çox yaxşı dərk etdim və nəhayət hamılıqla torpağa üz çevrilməsinə çox sevindim. Cənab Prezidentimizi sağ olsun, allah onu qorusun, biz çox razıyıq.

Bəzi problemlərimiz var ki, onların da həllinə ümidliyik. Kəndimiz tərəvəzçilik sahəsində ixtisaslaşıb. Burada emal sexinin, tədarük məntəqəsinin təşkili, eləcə də istixanaların yaradılması üçün kəndə qaz xəttinin çəkilməsi məhsul istehsalının qat-qat artırılmasına səbəb olardı. Bu məsələlərin həllinə kömək göstərilməsini xahiş edirəm.

Sonda möhtərəm Prezidentimiz İlham Əliyevə, cənab Başçı, Sizə, hörmətli qonaqlarımıza, bütün xalqımıza uğurlar, əmin-amanlıq arzulayıram. Hesabat dövründə görülən işlərin yüksək qiymətləndirilməsini təklif edirəm.

Diqqətinizə görə çox sağ olun!

**Tovuz şəhər sakini, sahibkar Kamal Ələsgərovun çıxışı**

Hörmətli Tofiq müəllim!

Hörmətli yığıncaq iştirakçıları!

Hesabat məruzəsindən göründüyü kimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən islahatlar 2016-cı ildə bütün sahələrdə, o cümlədən aqrar sektorda öz uğurlu nəticələrini vermişdir.

Ötən il rayonumuzda qeyri-neft sektorunun inkişaf etdirilməsi, kənd təsərrüfatı istehsalının şaxələndirilməsi istiqamətində konkret əməli tədbirlər



görülmüş, rayon icra hakimiyyəti tərəfindən bu sahədə sahibkarlara hər cür şərait yaradılmış və lazımi dəstək verilmişdir.

Mən bir sahibkar kimi ərzaq təhlükəsizliyində ən önəmli yerlərdən birini tutan kartofçuluqla məşğulam. Ötən il fərdi sahibkar kimi 60 hektar sahədə kartof əkmişdik ki, məhsul yığımında hektardan 300 sentner məhsul götürmüşük. Cari ilin məhsulu üçün əkin sahələrini genişləndirərək 110 hektara çatdırmışıq.

Məhsuldarlığı hər hektardan 40-50 tona çatdırmağa çalışırıq. Əlavə əkdiyimiz 50 hektar sahədə də süni suvarma şəbəkəsi quracağıq.

Ümumiyyətlə, bütün ərazimiz süni suvarılır. Bir ədəd artezian quyumuz, 1000 ton və 600 ton tutumunda su hovuzlarımız bu məqsədə xidmət edir.

İstehsal etdiyimiz məhsulu bazara təzə-tər şəkildə çıxarmaq üçün 6 min tonluq soyuducu anbar tikirik. Onun 3 min tonluq hissəsinin tikintisi artıq başa çatdırılmışdır. Hazırda həmin anbarda 1000 ton kartof məhsulu saxlayırıq. Keçən mövsümdə təsərrüfatımızda yüksəkixtisaslı mütəxəssislərlə bərabər, 22 nəfər daimi, 89 nəfər mövsümi işlə təmin olunmuşdur. Növbəti layihəmizin icrası zamanı işçilərimizin sayını daha da artıracağıq.

Məlumdur ki, əkinçiliyin ən mühüm məqamlarından biri əkin materialının seçilməsidir. Mən bu tribunadan çıxış edərək bu, sahədə xüsusi layihə üzərində işlədiyimizi bildirmişdim. Ölkədə nəsli kəsilmiş "Ağçiçək" və "Telman" sortlarından nümunə götürərək onların İran İslam Respublikasında labaratoriya şəraitində hüceyrə səviyyəsində saflaşdırılmış törəmələrinin alınması üçün müqavilə bağlamışdıq.

Artıq bu yaz biz tubikləri sahələrə köçürməyə hazırlaşırıq və bundan ən yuxarı sinif toxum əldə edəcəyik. Onu da deyim ki, bu ölkəmizdə ilk belə təcrübədir.

Kartofçuluqla yanaşı, bağçılıqla da məşğul oluruq. 6 hektar sahədə 4 min xurma tingləri əkmişik, 2 hektar sahə isə gilas bağı üçün hazırlanmışdır. Oraya İran İslam Respublikasında labaratoriya şəraitində yetişdirilmiş 4 min ədəd "Gizella-5" sortlu gilas tingləri əkiləcəkdir.

Sadaladıqlarım əlbəttə ilk başlanğıcdır. Başqa layihələr üzərində də fikirləşirik. Gələcəkdə "Abbat" sortlu armud növündən və salxım qoz kimi tanınmış "Cangiler" sortundan da bağ salmağı nəzərdə tuturuq.

Nəhayət, cənab Başçı, bir məsələni sizin və hörmətli qonaqlarımızın diqqətinə çatdırmaqla lazımi kömək göstərməyinizi xahiş edirəm. Bu, məhsulun tədarükü ilə bağlıdır. Tədarüklə əlaqədar biz qeydiyyatdan keçmişik və bu, öz təsdiqini tapıb. Yanvar ayı üçün 300 ton kartof məhsulunu portalda yerləşdirmişik və bu da öz təsdiqini tapıb, lakin məhsul indiyədək alınmayıb və səbəbi də bilinmir.

Cənab Başçı!

Sizin təşəbbüsünüzlə kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə işçi qruplarının yaradılması, respublikamızda müxtəlif yönlü assosiasiyaların təsis edilməsi, cənab Prezidentimizin regionlarda sahibkarlığın inkişafını daim diqqətdə saxlaması bizi daha da ruhlandırır və sahibkarlıq fəaliyyətimizi genişləndirməyə sövq edir. Bütün bunlara görə cənab Prezidentimizə minnətdarıq və bizim üçün yaradılan əlverişli şəraitdən istifadə edərək rayonumuzda sahibkarlığın inkişafı üçün bundan sonra da səylə çalışacağıq.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sahibkar Əhməd Muradovun çıxışı**



Hörmətli Tofiq müəllim!

Hörmətli yığıncaq iştirakçıları!

Yanvar ayının 10-da cənab Prezidentin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasında və yanvarın 30-da Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda səslənən fikirlər, qeyri-neft sektorunun inkişafı ilə bağlı dövlət başçısının tapşırıqları bütün ölkə ictimaiyyəti kimi tovuzlu sahibkarlar tərəfindən də böyük rəğbətlə qarşılanmışdır.

*(Davamı 5-ci səhifədə)*

1-1_tovuz.qxd 28.02.2017 16:03 Page 5



# Bütün sahələrin inkişafında dövlətimizin və Prezidentimizin qayğısını hiss edirik

*(Əvvəli 4-cü səhifədə)*

Son illər hörmətli Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu sosial-iqtisadi tədbirlər çərçivəsində qeyri-neft sektorunun inkişafına xüsusi əhəmiyyət verilir. Cox məmnunuq ki, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan sahibkarlar yüksək səviyyədə dəstəklənir. Onu da qeyd edim ki, mən keçən ilin fevral ayının 16-da cənab Prezidentin Tovuzda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə gənc sahibkar kimi öz işlərim haqqında məlumat verdim. Xüsusilə daxili bazarlarla yanaşı xarici bazarlara məhsul çıxarmağımız cənab Prezidentin diqqətini cəlb etdi və cənab Prezident bu istiqamətdə cox dəyərli tövsiyyələr verdi. Bu mənim həyatımın ən xoş anları idi. Məhz bu görüşdən sonra təsərrüfatımı daha da genişləndirmək, daha şox çeşiddə məhsul istehsal etmək və əsasən ixrac potesialımızı artırmaq qərarına gəldik və əlbəttə bu işlərdə rayon İcra Hakimiyyətinin köməyini qeyd etməmək olmaz.

Biz kənd təsərrüfatında ən gəlirli sahə olan istixanalarda faraş tərəvəz məhsullarının yetişdirilməsi ilə məşğul oluruq.

Belə ki, Bozalqanlı kəndi ərazisində 3,5 hektar sahədə istixana tikmişik. İstixanada əsasən xiyar və pomidor yetişdiririk. Bundan başqa 2.5 hektar sahədə alma, gilas, şaftalı bağı salmışıq. Mövsüm ərzində təsərrüfatımızda 35 nəfər daimi işlə, 30 nəfər isə mövsümü işlə təmin olunur. Təkcə onu bildirmək istıyirəm ki, keşən il xarici bazarlara 250 ton xiyar, 400 ton pomidor izrac etmişik.

Məhsulumuz əsasən Rusiya bazarlarında satılır. Suvarma suyu ilə təminatımız normal vəziyyətdədir. Tovuzşay su anbarının istifadəyə verilməsi və təsərrüfatımıza yaxın ərazidə subartezian quyusunun olması istənilən qədər su ilə təmin olumağımıza imkan yaradır. Respublikamızda ayrı-ayrı məhsul istehsalçıları və ixracatçılarının Assosasiyalarının fəaliyyətə başlaması yerlərdə qabaqcıl texnologiyaların tətbiqi, məhsul satışında olan problemlərin aradan qaldırılması, istehlak bazarlarımızın müəyyən olunmasında qarşılıqlı fəaliyyətimizin təşkilində mühüm rol oynayacaqdır.

Bildirirəm ki, istixananın qızdırılması qaz yanacağı ilə həyata keçirilir. Hava şəraitindən asılı olaraq mövsüm ərzində xeyli qaz yanacağı sərf olunur. Ötən ilin sonlarında enerji daşıyıcılarının qiymətlərinin artırılması təbidir ki, məhsulumuzun maya dəyərinin yüksəlməsinə səbəb olacaqdır. Bunun qarşılığının ödənilməsi sözsüz ki, istehlakşıların hesabına başa gələcəkdir. Bu isə məhsul satışını və təkrar istehsalın təşkilini risk altında qoyur. Ona görə də istixanalar üçün müəyyən həddə güzəştli limitin ayrılması işimizə böyük kömək olardı.

Çıxışımın sonunda sizi əmin edirəm ki, kənd təsərrüfatı məhsullarının istehsalın artırılması və ixracın təşviqi ilə bağlı dövlət tapşırıqlarının icra olunmasında biz sahibkarlar bundan sonra da var qüvvəmizlə çalışacağıq.

Diqqətinizə görə sağ olun!

***Dondar Quşçu kənd sakini Validə Qasımovanın çıxışı***



Hörmətli Tofiq müəllim!

Hörmətli yığıncaq iştirakçıları!

Mən çox şad oldum ki, Siz hesabat məruzəsində rayonumuzun sosial-iqtisadi inkişafını təhlil edərkən kənd təsərrüfatının ənənəvi sahələrindən biri hesab olunan baramaçılığa da toxundunuz. Qeyd etdiyiniz kimi uzun illər fasilədən sonra rayonumuzda bu il 1560 kiloqram barama istehsal olunması çox təqdirə layiqdir. Bu mövsümdə baramaçılıqla məşğul olanlardan biri də mənəm. İlk əvvəl bu işlə məşğul olmağa bir qədər tərəddüd etdim. Sonradan biləndə ki, bu işə rayon rəhbərliyi səviyyəsində yüksək dəstək verilir və iqtisadi cəhətdən çox sərfəlidir. Ona görə də bu işlə məşğul olmağı qərara aldım. İpəkçiliyin incə və çətin sahə olduğunu bilərək bu sahə üzrə mütəxəssislərdən lazımi məsləhətlər aldım. 18 qram barama toxumu götürdüm və saxladım. Nəticədə 40 kq barama nəzərdə tutulduğu halda, 75 kq əla növ barama yetişdirdim. 35 gün ərzində 600 manat gəlir əldə etdim. Əlbbətdə bu mənim üçün çox münasib gəlirdir və bu il daha çox barama istehsal etmək fikirindəyəm. Ən başlıcası odur ki, bunu görən həmkəndlilərim də barama yetişdirmək fikirinə düşüblər. Bu məsələyə əlavə stimul verən o oldu ki, möhtərəm cənab Prezidentimiz ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında Sərəncam qəbul etdi. Barama istehsalı ilə məşğul olan şəxslərə yaş baramanın hər kiloqramına görə subsidiya müəyyən edilməsi bizi çox sevindirdi.

Baramaçılığın inkişafının ən böyük şərti yem bazasının yaradılmasıdır.Keçin ilin payızında bizin kəndimizə yaxın olan bir ərazidə on min ədəd çəkillərin əkilməsi, eyni zamanda əlavə otuz min ədəd yerli tut şitillərinin becərilməsi gələcəkdə baramaçılığın inkişafına çox böyük təkan verəcəkdir. Sözsüz ki, yem bazası olarsa baramaçılığın genişləndirilməsində heç bir problem yaşanmayacaqdır. Mən bütün marağı olan şəxsləri baramaçılıqla məşğul olmağa çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm!

***Rayon ictimaiyyətinin nümayəndəsi Vəzir Süleymanovun çıxışı***



Hörmətli Tofiq müəllim!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün RİH başçısı cənab Tofiq Zeynalov 2016-cı ildə rayonumuzda görülən işlər barədə çox ətraflı, geniş məzmunlu hesabat verdi.

Mən ictimaiyyətin nümayəndəsi kimi hesabat ətrafındakı çıxışımı rayon ictimaiyyətinin gözü və sözü əsasında qurmağa çalışacağam. Əvvəlcə onu deyim ki, Tovuz ictimaiyyəti müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu öndərimiz Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə məharətlə həyata keçirən, ölkəmizdə davamlı inkişafa nail olan, Azərbaycanı dünyanın qabaqcıl dövlətləri sırasına çıxaran, əhalinin maddi rifahını günü-gündən yaxşılaşdıran, Azərbaycanın bütün regionlarında abadlıq və quruculuq işləri görən hörmətli Prezidentimiz cənab İlham Əliyevin apardığı siyasəti bəyənir və dəstəkləyirik.

Mən rayonumuzda görülən işlərə ümumi bir nəzər salmaq istəyirəm. On il bundan əvvəl rayonumuzda bütün saəhlər bərbad vəziyyətdə idi. Belə ki, mərkəzi meydanda çoxlu sayda butkalar qoyulub müxtəlif sahələr üzrə xidmətlər göstərilirdi, məktəblər, xəstəxanalar, yollar, İşıq, qaz və kanalizasiya xətləri pis vəziyyətdə idi. Kənd təsərrüfatı çökmüşdü, Tovuz kimi rayonda süfrəyə qoymaq üçün bir salxım üzüm yox idi.

Baxın, son illərdə Tovuzmuzda nələr yarandı. Tovuza məxsus hamımızın gördüyümüz gözəl meydan, meydan ətrafında iki mərtəbəli binalar və möhtəşəm Heydər Əliyev Mərkəzi, illərlə asfalt tanımayan hər biri 50 km rayon mərkəzindən uzaqda yerləşən dörd ayrı-ayrı ucqar dağ kəndlərinə çəkilmiş asfalt yollar və daha nələr....

Yeni və müasir tipli uşaq bağçaları, məktəblər, xəstəxana, dializ mərkəzi, mehmanxanalar, idarə və müəssisələr üçün inzibati binalar, parklar, otellər,şadlıq evləri,istirahət mərkəzləri, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yaşayış binaları tikilmiş, Tovuz şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri yenidən qurulmuş, Çar Rusiyası dövründən qalmış və antisanitar, acınacaqlı vəziyyətdə olan Semzavod qəsəbəsinin sakinlərinə beşmərtəbəli 85 ailəlik, iki bina tikilərək vətəndaşların istifadəsinə verilmişdir. Bu obyektlərdə çox sayda Tovuz sakinləri mövsümi və daimi işlərlə təmin olunaraq ailələlərini dolandırır.

Bir məsələni də nəzərinizə çatdıraraq bildirmək istəyirəm ki, Sovet hakimiyyəti dövründə Çeşməli kəndində Musa adlı bir kişinin 5 otaqlı yerdən tikilmiş evini əlindən alıb məkətb binası etmişdilər. O gündən 90 il keçdikdən sonra rayon İcra Hakimiyyəti uçub dağılmış həmin məktəbin yerində yeni ikimərtbəli, bütün avadanlıqlarla təchiz olunmuş məktəb tikdirərək məktəblilərin istifadəsinə verdi.

Belə məktəblər ucqar dağ kəndlərində çoxdur, (məsələn, Papaqçılar, Həsənli, Çeşməli, Sofular, Qaradaş, Kirən və s) saymaqla qurtarmaz.

Kənd təsərrüfatı sahəsində üzümçülük, taxılçılıq, baramaçılıq, kartofçuluq, şəkər çuğunduru, kök, soğan əkilməsi üçün lazımi tədbirlər görülür və əkilir. Kənd təsərrüfatı məhsullarının suvarılması üçün böyük su anbarı tikilmiş və istifadəyə verilmişdir. Bundan başqa sahibkarlar tərəfindən heyvandarlıq inkişaf etdirilir, onlara da RİH tərəfindən lazımi dəstək verilir.

Qış mövsümündə çoxlu sayda istixanalar fəaliyyət göstərir.

Bütün bu söylədiklərim təbii ki, möhtərəm Prezidentimizin həyata keçirdiyi uğurlu sosial-iqtisadi siyasətin nəticəsində mümkün olmuşdur. Bunun üçün biz ilk növbədə cənab Prezidentimizə minnətdarıq. Bununla yanaşı belə bir həqiqətdən yan keçmək olmaz ki, hörmətli başçımız cənab Tofiq Zeynalov bu siyasəti çox bacarıqla yerinə yetirir. Biz rayonumuzda görülən işlərə sevinirik və inanırıq ki, bundan sonra da cənab Prezidentimiz İlham əliyevin rəhbərliyi altında rayonumuzda cüzi qalmış və ya başa çatmamış işlər cənab başçımız tərəfindən uğurla həyata keçiriləcəkdir. Biz buna əminik.

Biz bundan sonra da rayon İcra Hakimiyyətinin ətrafında sıx birləşərək ölkə rəhbərimizin bütün sahələrdə apardığı siysətə hər zaman dəstək verəcəyik.

Qoy həmişə sülh olsun! Allah Azərbaycanımızı və dövlət başçımız cənab İlham Əliyevi qorusun! Amin!

**Diqqətinizə görə sağ olun!**

***"Tovuz"***

1-1_tovuz.qxd 28.02.2017 16:03 Page 6



# Yaddaşlarda dərin iz qoyan, xalqı ilə döyünən alim ürəyi

***Mən fəxr edirəm ki, böyük müəllim, böyük insan haqqında xatirə yazıram. Əhməd müəllim kimi insanların haqqında söylədiklərimin səmimiyyəti həmin şəxsin həyat fəaliyyətinin üstünə bir işıq salsın. Düşünürəm ki, bir alim olaraq Əhməd müəllim haqqında danışmağa, xoş sözlər söyləməyə, səmimi fikirlər yazmağa mənim daha çox əsasım və haqqım var. Çünki, Əhməd müəllim mənim üçün təkcə alim deyil, o, həm də ailəcə bizə yaxın olan qohum olaraq əziz və doğma bir insandır. Ağayanalıq, alicənablıq, şəxsiyyətinin kamilliyi və bütövlüyü, nəcib insani keyfiyyətlərə malik xeyirxahlıq və ziyalılıq onun ömrünün yol yoldaşı olmuşdur. Bu da ondan irəli gəlir ki, Əhməd müəllim əsli-nəcabəti olan bir nəslin övladıdır. Cəsarətlə deyə bilərəm ki, həyatı boyu onun bir adəti olub: Ancaq insanlara yaxşılıq etmək. Bu yerdə dahi şairimiz Nizami Gəncəvinin bir sözü yadıma düşdü: "Yaxşılığı əzəldən adət eyl özünə, yaxşılığın hər yanda qapı açar üzünə".***



Əhməd müəllim həm də üzü nurlu bir insan idi. Bu, özü bir xoşbəxtlikdir. Əhməd müəllimi şəxsən tanıyanlar, onunla bu və digər şəkildə əlaqədə olan insanların böyük bir qismi hələ yaşayır. Onlar hamısı Əhməd müəllimdən xoş xatirlər danışırlar. Təkcə bir faktı deyim ki, onun keçmiş bir neçə tələbəsindən Əhməd müəllim haqqında danışmağı xahiş etdim. Onlar cavablarında qısa olaraq onu dedilər ki, Əhməd müəllim hamıya atalıq qayğısı göstərən bir müəllim idi.

Onun bir sözü yadıma düşdü. O, gənclərə deyirdi ki, siz gəncliyinizi yaxşı keçirin. Onun arxasınca Nizami Gəncəvinin bir sözünü dedim.

*Gənclikdir insana gözəllik verən,*
*Gənclik sönərsə qəlb olarmı şən?*

Siz yaxşı bilirsiniz Gəncə Nizami Gəncəvidən sifat gətirərdi : adını daşıyır. Onun haqqında daha ətraflı məlumatınız olmalıdır. Sonra yenə də Nizami Gəncəvidən bir şeir deyirdi:

*El gözündə Nizami ucalıbdır,*
*Ilhamına, qəlbinə güc aldı düzlükdən.*

Daha sonra şair Vidadidən nəsihət xarakterli br şeir yada salardı:

*Qoymakı, yerlərdə sürünsün bəşər,*
*Dünyada qalmasın nə psilik, nə şər.*
*Yaxşılıq insana bir sənət olsun*
*Dünya başdan-başa qoy cənnət olsun.*

İlk dəfə Əhməd müəllimi mən sünnət toyunda görmüşdüm. Hələ o vaxt mən yenicə məktəbə gedirdim. Həmin məclisdə mənim yadımda qalan Əhməd müəllimin çıxışı və iki aşığın (aşıq Ələkbər, aşıq Aslan və balabançı İbrahim) oxuması oldu. Ona görə mən vaxt keçdikdən sonra atamdan soruşdum ki, o məclis nə üçün təşkil olunmuşdur?

Əhməd müəllimlə necə qohum olmağımıza aydınlıq gətirdi:-Oğul, mən Əhməd müəllimi yaxşı tanıyırdım. Atası Murad kişi ilə də dostluq edirdik. Əhməd müəllim çox cavan olmasına baxmayaraq onun həyatda tutduğu mövqedən hiss etdim ki, o çox ağıllı-kamallı oğlandır. Bir gün ona dedim ki, Mənim bir arzum var. Bacın Qızxanım müəlliмənin oğlu olsa onun kirvəsi mən olum. Onu da deyim ki, Məhəmmədin böyük qardaşı Abuzər bizim evdə çox olurdu. O, qardaşım Novruzla həm də qardaşlıq olmuşdur. Abuzər o vaxtı kolxoz sədri, Novruz isə kənd sovetinin sədri işləyirdi. Nə iş görmək istəyəndə bir yedə məslәhətləşirdilər. Müharibə başlananda o, Novruza demişdi ki, mən özümü çox narahat hiss edirəm. Vətən sevgisi məni əlimə silah alıb müharibəyə çağırır. Elə də oldu. Heyif ki, o müharibədən qayıtmadı. Qaldı sənin o məclisdə iştirakının səbəkarı əmin Novruz olmuşdu. O, istəyirdi sən aşıqlara qulaq asasan. Əmin o məclisdə Əhməd müəllim haqqında çox yaxşı sözlər dedi. Sən uşaq idin, çox şey yadında qalmazdı. Əvvəlcə Əhməd müəllim əmindən söz istədi. Onun çıxışı məclisin, xüsusilə əminin çox xoşuna gəldi. Novruzun isə o məclisdə dediyi sözlər yadımdadır. O üzünü Əhməd müəllim tərəfə tutub dedi ki, təhsil almaq istəyən hər bir şəxs alim ola bilər, lakin bununla belə yanaşı gərək yaxşı mənəviyyatlı insan olasan. Sən insanlıqda alimliyi, alimlikdə insanlığı özündə birləşdirən əsl ziyalısan. Sən belə ağıl sahibisən. Dahi Nizami demişkən:

*İnsana arxadır onun kamalı*
*Ağıldır hər kəsin dövləti, varı.*

Novruz Əliyev çox uzaqgörənlik edib. Deyə bilərəm ki, Əhməd müəllim dostluğa, yoldaşlığa, qohumluğa, bütövlükdə elinə-obasına çox sadiq bir insan idi. Təkcə bir faktı deyim ki, Əhməd müəllim ölümündən bir neçə il sonra Novruz Əliyev haqqında müdriklik və el ağsaqqalı adlı bir xatırə yazmışdır. Öz xatirəsində yazır ki, universitetdə təhsil aldığım vaxtı Novruz dayı Bakıya gələndə mənimlə görüşürdü. Nəyə ehtiyacım olduğu ilə maraqlanırdı. Çətinlik çəkib çəkmədiyimi soruşurdu. Universitetdə oxuyan qohumlara, tanışlara imkanı daxilində köməklik edirdi.

Biz tələbələr onun diqqət və qayğıkeşliyindən çox məmnun olurduq. Həmin illərdə o mənə sözün əsil mənasında atalıq qayğısı göstərib. Novruz Əliyevin yaxşılığını heç vaxt unutmayacam. Bu müdrik insanın ən yaxşı qiymətini həmyaşıdları olan insanlar verə bilərlər.

Onu deyə bilərəm ki, Novruz Əliyevin işıqlı siması bu həyat yolunda irəliləyərkən məni yıxılmağa qoymayan mübariz olmağa səsləyən, möhkəmləndirən iradəli edən bəzi amillərdən biri olub.

Allah ona qəni-qəbi rəhmət eləsin.

Qoy Allah onun, o dünyasını versin. Əhməd müəllim, sənin də qoy Allah o dünyanı versin. Siz mənim əmim haqqında xatirə yazmışsınız. Onun da qardaşı oğlu da indi sizin haqqınızda xatirə yazır.

Bu yerdə Mirvari Dilbazinin, "həyatın ən qəmli dəmi də xoşdur" sözü yadıma düşdü:

*Ey həyat!*
*Diz çöküb baş əyirəm mən*
*Sənin sevincinə, kədərinə də,*
*Sənin hər anına xoş deyirəm mən,*
*Dözürəm qəhərinə də.*
*Ümman çalxalanmasa, ümman olarmı?*

Yaddaşlarda dərin iz qoyan, xalqı ilə döyünən bu alim kimdir?

Əhməd müəllim 1926-cı ildə Tovuz rayonunun Qaraxanlı kəndində böyük hörmətə malik ailədə dünyaya göz açmışdır. Onu da bildirim ki, professor M.Müseyibovun dediyinə görə Qaraxanlı kəndi doqquz nəsildən ibarətdir. Onun da biri Süleymanlar nəsli olmuşdur. Nəslin başbilən kişilərindən biri Əhməd müəllimin ataşı Murad dayı və əmisi Həmid müəllim olmuşdur. Murad dayı müxtəlif vəziyyətlərdə, Həmid müəllim isə Xatınlı orta məktəbində müəllim işləmişdilər. Hər ikisi el-oba arasında böyük nüfuza sahibi idilər. Həmid müəllimin şairliyi də olmuşdur. O vaxtlar Əhməd müəllimin bacısıda coğrafiya müəllimi idi. Elə məni coğrafiya elminə istiqamətləndirən Qızxanım müəllimə olmuşdur. Yadımdadır, mənə deyirdi ki, sən gələcəkdə Müseyib müəllimin davamçısı olacaqsan. El-oba arasında Qızxanım müəllimәyə "el anası" deyirlər. Belə bir atalar sözü var: Aslanın erkəyi, dişisi olmaz. Murad kişinin nəvəsi Təranə xanım bibisi və atasının yolunu davam etdirir. Təranə xanım vətənini, el-obasını çox sevir. O, öz işini layiqincə yerinə yetirməklə baba yurdunu da yaddan çıxartmır. Gəncədə yaşamasına baxmayaraq həftədə bir dəfə babasının evinə gedir. Bununla yanaşı daima el-obasını sevincinə və kədərinə şərik olur. Təranə xanımın bu xarakteri gənclər üçün örnək ola bilər.

Dahi Səməd Vurğun yaxşı deyib:

*Adın şərəflidir sənin, ey qadın,*
*Dahilər anası çağrılır adın.*

Belə bir söz var, deyirlər ki, dünyada ən varlı insan xeyirxah insandır. Sanki, xeyirxahlıq bu ailənin taleyinə yazılıbmış. Qızxanım müəllimə öz sənətinin vurğunluğu, şagirdlərə qarşı tələbkarlığı, müəllim kollektivi arasında yüksək ciddiliyi ilə seçilirdi. Hətta, məktəbdə hansı şagirdin bir şikayəti, ehtiyacı olsa, məktəbin direktoruna yox, Qızxanım müəllimәyə müraciət edirdilər. Mən orta məktəbi qurtardıqdan sonra C.M.Kurov adına (indi BDU adlanır) ADU-nin geoloji coğrafiya ixtisasına qəbul oldum. Buna görə həyatım boyu Qızxanım müəllimәyə özümü borclu hesab edirəm. Bu yerdə Mirvari Dilbazinin sözünü desəm yerinə düşərdi:

*Hər papaq qoyana kişi desəm mən,*
*Kişilər inciyər səxavətindən.*
*Elə qadınlar da var, böyüdüb vətən*
*Günahdır onlara kişi deməsən.*

Atası Murad kişinin oğlu haqqında bir çox arzuları olmuşdu. Onun ilk sözü bu olmuşdu:- Oğul, torpaq şəxsiyyətləri ilə tanınar, mən səndən çox şeylər gözləyirəm. Əgər arzularıma çatsam mən onda fəxrlə deyə bilərəm ki, dünyanın ən xoşbəxt insanlarından biriyəm.

Atanın bu sözü Əhməd müəllimin yadından çıxmamışdı. O ilk təhsilini Xatınlı kənd orta məktəbində almış, sonra Qazax Müəllimlər İnstitutunun tarix və dil ədəbiyyat fakültəsində, daha sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin fəlsəfə şöbəsində davam etdirərək fəqrlənmə diplomu ilə təhsil ocağını bitirmişdir. Əhməd müəllim bundan sonra Zərdabi adına Kirovabad pedaqoji institutunda (indiki Gəncə Dövlət Universiteti) müəllim işləmiş, 1958-ci ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsini, 1959-cu ildə dosent adını almışdır. 1959-cu ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda Marksizm-Leninizm kafedrasının müdiri (1958-1964), fəlsəfə və elmi kommunizm kafedrasının müdiri (1964-1975), fəlsəfə, politologiya kafedrasının müdiri işləmiş (1984), ömrünün sonunadək fəlsəfə və tarix kafedrasına rəhbərlik etmişdir.

O, uzun illər şəhər sovetinin deputatı olmuşdur. 1970-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1972-ci ildə professor adına layiq görülmüşdür.

Əhməd müəllim vətəninə, elinə, obasına olduqca layiqli bir ziyalı idi. Qarabağ döyüşündə Əhməd müəllim əskərləri daha da ruhlandırmaq üçün səngərlərə gedərək, onların arasında tez-tez olurdu. Bununla yanaşı Tovuz Rayon Xeyriyyə Cəmiyyətinin Gəncə filialını yaradaraq onun rəhbəri olmuşdur.

Əhməd müəllim həyatı boyu dostluqda çox sədaqətli, el-oba, qohum qədrini bilən, onların qayğısını çəkməyi bacaran təəssübkeş insan idi. Elə bu yüksək insani keyfiyyətlər tələbəlik vaxtından onun görkəmli alimlər. ziyalılar arasında dostluq əlaqələrinin yaranmasına səbəb olmuşdur.

Bu xüsusiyyətlərinə görə də hələ tələbəlik illərində görkəmli akademik Abdulla Qarayev, akademik Şəfahət Mehdiyev, AZ E.A-nın müxbir üzvü Qoşqar Əhmədli, Firudin Köçərli, Ənvər Əhmədov, Qəzənfər Cəfərli, Tofiq Köçərli, Bəhram Əliyev, Sayad Qılıcov, Fuad Qasımzadə kimi görkəmli dostları var idi.

Tələbəlik illərində Əhməd müəllim BDU-da tələbə sovetinin sədri seçilmişdi.

Əhməd müəllim Azərbaycan Elmlər Akademiyasının fəlsəfə və hüquq institutunun müdafiə şurasının üzvü olmaqla 20-yə yaxın namizədlik və doktorluq dissertasiyasına apanentlik etmişdir. 40-dan çox monoqrafiyanın, yüzdən çox məqalənin müəllifi olmuşdur.

Əhməd müəllim aramızda yoxdur. Ancaq onun yeri çox görünür. Əhməd Murad oğlu Həsənovun xatirəsi bizim və onu tanıyanların yaddaşlarında və qəlblərində daim yaşayacaqdır. Bu yerdə Səməd Vurğunun ölməz misrasını yada salmaq yerinə düşər:

*Demə Səməd Vurğun gəldi-gedərdi,*
*Unutmaz bu oba, bu mahal məni.*



***Alı Heydər oğlu Əliyev,***
***Təbiətşünas alim,***
***Azərbaycan Dövlət***
***Pedaqoji Universitetinin müəllimi***

1-1_tovuz.qxd 28.02.2017 16:03 Page 7





# Tovuzdan ayrılan Xınna kəndləri (1)

***Ellərimiz həmişə aranlı-yaylaqlı olub. Redaktorum rəhmətlik Musa müəllim-Musayev Musa Əli oğlu (1908-1989) deyərdi ki, "Dağ aranın gərəyidi, aran dağın çörəyidi". Tovuzumuz Tanrının bizlərə bəxş elədiyi elə bir müqəddəs torpaqdır ki, insan bəsləməyə, sağlam nəsil formalaşdırmağa lazım olan 9 iqlim qurşağının hamısı burada cəmləşibdi.***

***Taxıl əkinləri aranda olanlarımızın böyük qismi Xınna camaatıdır. Zəyəm çayı vadisi boyu və həmin çayın sutoplayıcı hövzəsindəki dağlarda bərqərar olan Tovuz kəndləri vaxtilə 50-dən artıq idi. Onlardan beşi 1963-cü ildə respublika hökuməti və dövlətinin qərarı ilə qonşu Gədəbəy rayonunun tərkibinə verilmişdir. Bunun qəribə bir əhvalatı var.***

### Əsəd kişinin ustalığı

Əsəd İbrahim oğlu Sadıqov Tovuz rayonunun Keşişkənd Sovetliyinin Samanlıq kəndində anadan olmuşdu. Kənd məktəbini bitirdikdən sonra Tovuz şəhərində o vaxtlar fəaliyyət göstərən 6 aylıq hesabdarlıq kursunda oxuyub. Əmək fəaliyyətinə Samanlıqda hesabdar kimi başlayan Sadıqov Keşişkənddə və Aşağı Ayıblıda (Əyyublu) mühasib işləyib. 1953-cü ildə Keşişkənddəki birləşmiş "İnqilab" kolxozuna sədr olub. Həmin kolxoz Qoşabulaq, Keşişkənd, Moruqlu, Pərizamanlı, Totuqlu, Samanlıq kəndlərini əhatə edirdi. Hələ 1933-cü ildə isə o kəndlərin hərəsinin ayrıca kolxozu olmuşdu: Keşişkənddə "Bakı fəhləsi", Samanlıqda "Beynəlmiləl", Qoşabulaqda "İnqilab", Moruqluda "Lenin fabrikası" kolxozları. O kolxozların da Tovuzun aran hissəsində əkin və otarğa yerləri vardı...

Stalinin ölümündən sonra ötən əsrin 50-ci illərinin sonlarından başlayaraq Nikita Xruşşovun hakimiyyəti dövründə ciddi dövlət aparatının və mərkəzləşdirilmiş hakimiyyətin demontajına başlandı. İdarəetmədə, iqtisadiyyatda və xüsusən kənd təsərrüfatında uğursuz eksperimentlər, volyuntarizm öz acı nəticələrini göstərdi. Dünyanın o düz vaxtında-1961-1963-cü illərdə əhali aclıqla imtahana çəkildi.

Rayonların birləşdirilməsi, idarəetmə və icra sturukturlarının ixtisarından zərər çəkənlərdən biri də Tovuz rayonu oldu. Tovuz 04 yanvar 1963-cü il tarixdə Qazax rayonuna birləşdirildi. Doğrudur, bu birləşmənin ömrü az çəkdi. 17 iyun 1964-cü ildə Tovuz rayon kimi yenidən bərpa olundu, ancaq artıq olan olmuşdu.

Təsərrüfat rəhbəri olan Əsəd Sadıqovun (1923-2015) işi prokurorluğa düşür. Məsələnin kökü isə beləydi ki, Qazağın o vaxtkı rayon rəhbərliyi inzibati orqan əli ilə kolxoz sədri Əsədi tutdurmaq istəyir. Əsədsə işi düzüb qoşur.O zaman respublika Ali Sovetinin sədri olan Məmməd İsgəndərov və hökümətdə ona dəstək verənlərin köməyi ilə düz bir yük maşını kolxozçu və evdar qadının Bakı şəhərinə aparılması təşkil olunur və o qadınlar Ali Sovetin qarşısında piket keçirirlər ki, biz uşaq pulu kağızını almaq üçün (onda hər doğulan uşaq həddi-büluğa çatana kimi ona 12 manat müavinət verilərdi və o 12 manat çox bərəkətliydi, çoxuşaqlı analar heç yerdə işləməyib qazanc gətirməsə belə o "uşaq pulu" ilə bütün ailənin dükan-bazardan alınanlara tələbatı əməllicə ödənirdi) Haçaqayanın yanından Qazağa 150 kilometr yol gedirik. Düz üç gün yollarda qalırıq, təhqir olunuruq, abrımız gedir, daha nə bilim, nələr. Kolxozumuzdan isə qonşu Gədəbəyin mərkəzinə cəmisi 30 kilometrdir. Bizi Qazax rayonundan ayırıb birləşdirin Gədəbəyə.

...İşin nə yerdə olduğunu, ona qurulan tələnin hara aparacığını bilən Əsəd kişi düz 6 ay idi ki, Qazağın heç bir çağırışına getməmişdi. Kolxozun maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanmasının nəticələrinə rayon partiya komitəsinin bürosunda gələn ay baxılacaqdı. Əsədsə:öz işini gördü "İnqilab" kolxozunun əhatə elədiyi kəndlər əhalinin müraciəti nəzərə alınaraq onların vəziyyətini yaxşılaşdırmaq məqsədilə Gədəbəy rayonunun inzibati ərazisinə daxil edilməsi daha yaxşı olar. Elə həmin arqument və "piket" əsas götürülərək bu barədə Azərbaycan SSR Ali Soveti və Nazirlər Sovetinin rəsmi qərarı qəbul olundu.

Ə.Sadıqov isə o işləmək düz 1988-ci ilədək həmin kəndlərin kolxoz sədri oldu, arada Gədəbəy rayonunda 1988-1995-ci illərdə kənd kimya birliyində sədr işlədi, sonra 1995-ci ildə yenidən doğma kəndi Samanlıqda kənd icra nümayəndəsi oldu. Beş ilə qədər də vəzifədə çalışandan sonra oğlu Süleymanı öz yerinə kəndə rəhbər qoydurmuşdu...

Tovuzun o sabiq dağ kolxozunun əsas əkin torpaqları Tovuzun Alakol, Dönük Qırıqlı kəndlərinin və Qovlar şəhərinin həndəvərindəki "Tərs yer"dədir.

### Qoşabulaq adlanan Keşkənd

Qeyd etdiyimiz kimi "İnqilab" kolxozu Keşkənd də daxil 5 dağ kəndimizi birləşdirirdi. Mənə görə indi səslənməsi qulağa bir cür gələn o kənd adının sözün müstəqim mənasında "keşişlə" heç bir əlaqəsi yoxdur.

Allaha yaxın yerdə, uludan ulu Haçaqayamızın öz sayasını saldığı bizim Sarıtala, Ağacqala, Almalıtala, Qəribli kəndləri ərazisində tapınaq yerləri-yaşı bilinməyən məbədlər var. Doğrudur, bunu albanlarla bağlayırıq, əslində xristianlıqdan çox öncədir. Burdakı məbədlər heç Şəkinin Kiş məbədindən geri qalası deyil. Bunu yaza-yaza o da yadıma düşür ki, bəlkə elə həmin "Kiş" sözü təhrif olunub, o qədim kəndimizinindi adını çəkəndə adamın yadına erməni düşən Keşişkənd adına dönübdü. Əmir Teymurun doğulduğu kəndin adı da Keşdir və bundan savayı, Oğuz xaqanın törəmələrindən biri də bu adı daşıyır. Türkiyəmizdə, Güney Azərbayanımızda Keş dağı, əzəli torpağımız olan indiki Ermənistanda da Keş kəndi var. Qədim mənbələrə görə dini ayinlər yerinə yetirilərək qurban kəsilən məkana-yerə də "keş"-"kiş" deyilərmiş. Haçaqaya, axı, yaxındadı. Kiş tayfaları da öz yerində. Xülasə, türk mənşəli sözümüz danışıq dili qaydalarının amansızlığı ilə təhrif olunaraq Allahyar bəyin tarixi kəndi olan Keşkənd - "Keşişkənd"ə çevrilibdi. Sözsüz, bütün bunlar geniş tədqiqat mövzusudu, alimlərimiz, inşallah, öz sözlərini yəqin deyərlər.

Bircə məsələ gün kimi aydındır ki, türk dünyasının böyük oğlu Teymurlənglə tarixi torpaqlarımız çox sıx bağlıdır. Əmir Teymurun atası Tarağayın əvvəl mürşidi olan Şəmsəddin Qulalı (bizim tarixi Şəmsəddin və onun tərkibindəki Qulalı toponimi ilə necə də səsləşir. Hayıf ki, bu gün elə öz adıyla Ermənistanın Şəmşəddin rayonunun tərkibindədir) daha sonra isə Əmirin mənəvi-ruhani atası, qələbələrinin rəhni olan böyük müəllimi olmuşdu. Siz hələ bir uyğunluğa baxın ki, türkün böyük oğlu Fateh sultanın da müəllimi Ağ Şəmsəddin həzrətləri idi və hər iki Şəmsəddinin bizim tarixi Şəmsəddin-Tovuz mahalı ilə bağlılığı gün kimi aydındır və həqiqət olması ortadadır.

### Törpülü soraqlı Qoşabulaq

Vaxtilə tarixi Keşkəndlə eyni sovetlikdə birləşən Qoşabulaq Gədəbəy rayonunun inzibati ərazisində Badaçayın sahilində, Şahdağ silsiləsinin ətəyindədir. Qoşabulağın keçmiş adı Törpülü olmuşdur. Dağlar qoynunda, bir yanı Daşlı aşırım, bir yanı Öküz dağı, salınan kəndin ərazisi vaxtilə o ətraf ərazilərin də daxil olduğu Şəmsəddin-Tovuz mahalının Yanıqlı kəndinin binəsi olmuşdur.

Axar-baxarlı Xınna dərəsindəki Törpüllər kəndindən XIX əsrin axırlarında bir çox evlər gəlib burda məskunlaşır və gursulu, addımbaşı yamacdan və dərələrdən poqquldayıb çıxan qoşa-qoşa bulaqların nişanında buralar Qoşabulaq adlanmağa başlayır.

Məqamıdı, bu "Törpüllər" adına da işıq tutmağa çalışaq. Bu gün Tovuzun Qəribli İƏD-nin əsasən Bala Şamlıq kəndində yaşayan törpüllər adamı öz ruzi-bərəkəti, çörəkli olması ilə həmişə seçilir. El arasında o kəndə elə Törpüllər də deyirlər. O camaatın yarızarafat-yarıgerçək bir sınaması da var ki, hər kəs törpüllərdən qız alsa gəlin öz qədəmi ilə təzə evə var-dövlət gətirəcək, çörəyi də bol olacaq o evin.

Biz də gəlin bu "törpü", "törpüllər" sözünün semantik mənasına nəzər yetirək. Birinci mənada "törpü" toqqada, kəmərdə artıq qayışı bərkitməyə xidmət edir, mənası və funksiyası aydındır. Sonra, Anadolu ağzınca bir məsələyə dəstək olan, problemin həllində vasitə olan anlamda deyilir ki, filan vasitə, ya dərman o xəstəliyin müalicəsini törpülüyür...

O nəslin ağsaqqalları vaxtilə danışırdı ki, Allahyar bəyin babalarına indi Ermənistanda qalan tarixi Körpülü kəndindən bir cüt cins at bağışlayırlar. Onlara bir müddət qulluq eləmək üçün atla bərabər mehtər də göndərirlər. Həmin adam buralarda istilik, xoş münasibət görür və gözü də bir el gözəlini tutur, daha evlənib qalır Xınnada. Yerli adamlar da onun törəmələrini gəldikləri yerin adıyla "körpülülər" deyə çağırır, həmin söz də get-gedə elin dilində dönüb olur "törpüllər". Bu da bir etimalogiyadır.

Törpüllər indi Alakoldan başlamış Xınnanın bir neçə yerində, şəhərlərimizdə də yaşayırlar.

***(Davamı növbəti sayımızda...)***



***Bəhruzər Rüstəmov.***

1-1_tovuz.qxd 28.02.2017 16:03 Page 8



# Tariximizin qan yaddaşı




Bu gün tariximizin ən böyük faciəsi olan Xocalı soyqırımı günüdür. Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri H.Əliyev Xocalı soyqırımının 10 illiyi münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir ki, bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycanlıların öz tarixi etnik torpaqlarından qovulması Sovet dövründə də davam etmişdir. 1948-1953-cü illərdə Ermənistandan 150.000 azərbaycanlı Kür-Araz ovalığına köçürülmüş, 1988-ci ildə isə 150.000 azərbaycanlı bu ərazilərdən qovulmuş, bununla "Ermənistan" mono etnik dövlətə çevrilmişdir. Bütün bunlar isə yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsilə nəticələndi.

1992-ci il fevralın 26-da Ermənistanın və 366-cı rus alayının birləşmiş hərbi qüvvələri 7000 əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü, 1000 nəfərdən çox yaralandı, 106 qadın, 63 az yaşlı uşaq, 70 qoca öldürüldü, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər 2 valideynini, 130 uşaq isə valideynlərdən birini itirdi, 1275 nəfər əsir alındı. 150 nəfərin (onun 68-i qadın, 26uşaq) taleyi hələ də məlum deyil.

Ulu Öndərin mübariz səyi nəticəsində "Xocalı soyqırımı" öz tarixi əksini tapdı. Beynəlxalq Təşkilatlara, BMT-yə, Beynəlxalq Məhkəmələrə müraciət edilib.

Bir çox dövlətlərdə Türkiyə, Meksika, Çexiya, Bosniya, Panama, İordaniya, Pakistan, Ruminiya və ABŞ-ın 21 ştatında və s. ölkələrdə "Xocalı soyqırımı"nı tanıyıblar.

Bu gün hələ də BMT-nin 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 №-li qərarları öz həllini tapmayıb.

Biz bu gün hörmətli Cənab Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək erməni separatçılarını öz əzəli torpaqlarımızdan çıxartmalıyıq. Aprel əməliyyatı buna zəmin yaradıb. Biz Xocalı faciəsini heç vaxt unutmayacağıq. İndi bütün məktəblərdə "Xocalısız-25 il" mövzusunda tədbirlər keçirilir.

Allah, bütün Şəhidlərimizə rəhmət eləsin!

***Mehman Əhmədov,***
***RTŞ-nin metodisti,***
***"Baş müəllim",***
***"Qabaqcıl Təhsil İşçisi"***

# 21 fevral Beynəlxalq Ana Dili Günüdür
## Dilimizi sevək, sevdirək

Ümummilli liderimiz Heydər Əliyevin məhşur bir fikrini dönə-dönə xatırlamaqla qürur duyuruq: "Millətin milliliyini saxlayan onun dilidir".

Hər bir xalqın öz dili var. Dil insanın mənəvi aləminin əks-sədası olmaqla təfəkkürün ifadə vasitəsidir. Ana südü bədənin mayası olduğu kimi, Ana Dili ruhun qidasıdır. Ş.İ.Xətai yazmışdır: "Babalardan bizə üç yadigar qalmışdır:dilimiz, qeyrətimiz, vətənimiz". Bu üç əmanəti göz bəbəyimiz kimi qoruyub saxlayaraq gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs vətəndaşlıq borcumuzdur.

İnsanın həyatında dil qədər əhəmiyyətli heç nə yoxdur. Dilin köməyilə biliklərə yiyələnir, bir-birimizlə ünsiyyət qurur, dünyagörüşümüzü artırırıq. Bizim doğma dilimiz Azərbaycan dilidir. Ayaqlarının altı cənnət olan analarımız öz körpələrinə laylanı bu dildə çalmışlar. Elə bu laylalar vasitəsilə də dilimizin şirinliyini, saflığını qanımıza, iliyimizə hopdurublar.

Azərbaycan dilinin ucalığını, tarixin sınağından süzülüb gəlməsini Xalq Şairi Zəlimxan Yaqub belə ifadə etmişdir:

*Füzuli zirvəsi, Vaqif vüqarlı,*
*Mənim Qorqud dilim, Ələsgər dilim!*
*Ömrümün naxışı, bəxtimin xalı,*
*Dadda, şirinlikdə bal, şəkər dilim!*

Artıq neçə illərdir ki, fevralın 21-i günü ölkəmizdə də Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. Bu əlamətdar gün ərəfəsində biz müəllimlər şagirdlərlə bu mövzuda diskussiyalar aparmalı, inşa yazılar yazdırmalı, bilik yarışları təşkil etməli, şair və yazıçılarla görüş keçirməliyik. Çünki, şeirlərini sevə-sevə oxuduğumuz hörmətli şairimiz İsa Cavadoğlunun "Ana dili" şeirində ifadə etdiyi kimi, dili ilə adı eyni olan vətənimizə də, onun dilinə də qurban olmağa hazırıq:

*Mənim ana dilim-dinim, imanım,*
*Qədim əcdadımın sədası, dilim!*
*Mənim ana dilim-şəhdi-zəbanım,*
*Anamın ən şirin laylası dilim!*

*Mənim ana dilim-keçmişim, ulum,*
*Sonsuz gələcəyə uzanan yolum,*
*Sən adlı vətənin qurbanı olum,*
*Ana Vətənimin anası dilim!*

***Cəmilə İsgəndərova,***
***Əyyublu kənd 1 saylı tam orta məktəbin müəllimi***

# "Varislər" ədəbi birliyinin üzvlərinin nəzərinə!

**Aprel ayının sonunda "Tovuz" qəzetinin nəzdində fəaliyyət göstərən"Varislər" ədəbi birliyinin üzvlərinin yaradıcılığından ibarət almanaxın I cildinin buraxılması nəzərdə tutulmuşdur.**

**Üzvlərdən xahiş olunur ki, özləri haqqında məlumat, bir ədəd 4x6 ölçüdə fotoşəkil və 5-7 səhifə həcmində yaradıcılıqlarından nümunələri "Tovuz" qəzeti redaksiyasında qəzetin baş redaktor müavini, məsul katib Ramiz Çıraqlıya təqdim etsinlər.**

***Əlaqə telefonları:***
***31-5-35-23***
***050-471-41-33***
***"Varislər" ədəbi məclisi***

# Allah rəhmət eləsin!

Tovuz rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov və icra hakimiyyəti aparatının kollektivi Allahyar Rəhimova, atası
**Ənvər Rəhimovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tofiq, Dilman, Şakir, İmran, Çingiz, Mübariz Musayev qardaşları Əsədovlar ailəsinə, əzizləri
**Vidadi Sarı oğlu Əsədovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tofiq, Dilman, Şakir, İmran, Çingiz, Mübariz Musayev qardaşları Allahyar Rəhimova atası
**Ənvər Rəhimovun**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

Binnət Hüseynov və Tovuz Rayon Bələdiyyə Şurasının, Kollektivi Əyyublu bələdiyyəsinin sədri İlham Dəmirova əzizi
**Məlik Dəmirovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ramiz Çıraqlı və ailə üzvləri yaxın qohumları Mürsəl Dəmirova, qardaşı
**Məlik Dəmirovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Çingiz Qəribli, Ramiz Çıraqlı, Eldar Cəfərov Əyyublu bələdiyyəsinin sədri İlham Dəmirova, əzizi
**Məlik Dəmirovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Hörmətli oxucular!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı olan

**"Tovuz"**

qəzetinə 2017-cı ilin birinci yarısı üçün abunə yazılışına başlanıb. Qəzetin yarım illik abunə qiyməti 20 manatdır. Qəzetə "Kapitalbank"ın Tovuz filialında abunə yazılmaq olar.

**BAŞ REDAKTOR**
**Çingiz Qəribli**

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: 315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*
*Sifariş842. Tiraj: 1500.*